*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.383-390*

https://doi.org/10.62837/2025.4.383

**SEVİNC QULİYEVA**
**Naxçıvan Dövlət Universiteti**
**https://orcid.org/0009-0004-6051-6313**
**sevincquliyeva@ndu.edu.az**

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA DİSTOPİYA ÜNSÜRLƏRİ: TOTALİTARİZM, NƏZARƏT VƏ GƏLƏCƏYİN QORXULU SSENARİLƏRİ

## XÜLASƏ

Xalqımız əsrlər boyu keşməkeşli həyat yolu keçmiş, bir çox çətin işin öhdəsindən cəsarətlə gəlmişdir. Belə ki, əsrlər boyu davam edən işğallar, müharibələr, səhv idarəetmə və bunun nəticəsində vətəndaş müharibəsi və torpaq itkisi, soyqırımlar və digər tarixi hadisələr xalqın düşüncəsində dərin izlər buraxmışdır. Demək olar ki ybir çox əsərlərdə bütün bu travmaların izləri görülür. Bu cür ictimai-siyasi proseslər daim ədəbiyyatın istiqamətini təyin etmişdir. Gərgin mühit bütün dünya ədəbiyyatında olduğu kimi, Azərbaycan ədəbiyyatında da distopik mövzuların ortaya çıxmasına səbəb olmuşdur. Lakin bu istiqamətin sistemli şəkildə araşdırılmasına ehtiyac vardır.

Bu araşdırma Azərbaycan ədəbiyyatında distopiya ünsürlərini araşdırmaq üçün şəxsi analiz, ədəbi təhlil və müqayisə metodundan istifadə edəcəkdir. İlk olaraq, distopiya janrının ümumi əsasları təqdim ediləcək, dünya ədəbiyyatından nümunələrlə müqayisə aparılacaq. Daha sonra, Azərbaycan ədəbiyyatında bu janrın izlərini daşıyan əsərlər (sovet və müstəqillik dövrləri daxil olmaqla) incələnəcək.

Araşdırma göstərir ki, Azərbaycan ədəbiyyatında distopik elementlər hər zaman açıq şəkildə ifadə olunmasa da, simvol və metaforalar vasitəsilə gizli formada ötürülmüşdür. Xüsusilə, Cəlil Məmmədquluzadə, M.Hadi, Əbdürrəhim bəy Haqverdiyev və s. bu kimi yazıçıların əsərlərində sosial distopiyalara aid elementlər mövcuddur:

Müstəqillik dövründə isə bu janr daha da inkişaf edərək, Anar, Pərviz Cəbrayıl, Aqşin Yenisey və digər müəlliflərin əsərlərində daha qabarıq formada görünməyə başlamışdır. Bu yazıçılar, sovet illərindəki siyasi sıxıntılar, dövlət nəzarəti, mədəniyyətə dair çökək məqamları distopik formalarla ifadə etməyə çalışmöşlar..

Bu araşdırma göstərir ki, Azərbaycan ədəbiyyatında distopiya janrı yeni bir istiqamət kimi mükəmməl araşdırılmasa da, onun izlərini tapmaq mümkündür. Bu da öz növbəsində irəli dövrlərdə bu istiqamətdə daha çox araşdırma aparmaq və janrı daha sistemli formada təhlil etmək vacibliyini ortaya qoyur..

Açar sözlər: distopiya, Azərbaycan ədəbiyyatı, Anar, Ağ qoç, qara qoç

**Giriş**

Distopiya, utopiyanın əksi olaraq, gələcəkdə mövcud ola biləcək qorxulu, repressiv və nəzarətə əsaslanan cəmiyyətləri təsvir edən bir ədəbi janrdır. Distopik əsərlər adətən avtoritar rejimlər, texnoloji nəzarət, fərdi azadlıqların məhdudlaşdırılması və sosial ədalətsizlik kimi mövzulara toxunur. Bu janr, ədəbiyyatda əsasən ictimai və siyasi hadisələrə cavab olaraq formalaşmışdır (2,3). Bu janr Azərbaycan ədəbiyyatında müstəqil formada özünü göstərməsə də onu bir çox əsərlərin tərkib hissəsində görürük. Əsərlər təhlil olunduqda görürük ki, Azərbaycan ədəbiyyatında distopiya mövzularının yaranması və inkişaf etməsi spesifik tarixi və ictimai-siyasi hadisələrlə sıx bağlıdır. Müharibələr, işğallar, repressiyalar və idarəetmə problemləri xalqın düşüncəsində dərin izlər buraxmışdır. Bu hadisələr ədəbiyyatda distopik elementlərin meydana çıxmasına zəmin yaratmışdır.

Azərbaycan ədəbiyyatında distopiyanın formalaşmasına təsir edən amilləri qimsən genişləndirsək təqribən bu cür sıralamaq mümkündür.

1. Sovet rejiminin təsiri - Totalitar rejimin senzurası, nəzarət mexanizmləri və fərqli fikirlərin boğulması yazıçıların əsərlərində gizli və açıq şəkildə distopik elementlərə yol açmışdır.
2. Müharibələr və torpaq itkiləri - Qarabağ müharibəsi və onun doğurduğu sosial-psixoloji travmalar bir çox yazıçının əsərlərində gələcəyə dair qorxulu ssenarilərin yaranmasına səbəb olmuşdur.
3. Şəxsiyyət və azadlıq məsələləri – Sovet dönəmində insan hüquqlarının məhdudlaşdırılması, cəmiyyətin fərdi və kollektiv şəkildə repressiyalara məruz qalması bu janrın inkişafına zəmin hazırlamışdır.
4. Texnologiya və nəzarət mexanizmləri - Müasir dövrdə texnologiyanın cəmiyyət üzərində nəzarət vasitəsinə çevrilməsi də Azərbaycan yazıçılarının diqqətini çəkən mövzulardandır.

Bu faktorlara əsasən, Azərbaycan ədəbiyyatında distopik elementlər müxtəlif yazıçıların əsərlərində fərqli formalarda öz əksini tapmışdır. Ancaq sonuncu amil demək olar ki, yox dərəcəsindədir.

Distopiya janrı, xüsusilə 20-ci əsrdən etibarən dünya ədəbiyyatında geniş yayılmış və müxtəlif cəmiyyətlərin qaranlıq tərəflərini əks etdirən bir ədəbi forma kimi önəm qazanmışdır. Azərbaycan ədəbiyyatında isə bu janr müstəqil bir forma kimi deyil, daha çox digər janrların içərisində distopik elementlər şəklində özünü göstərmişdir

## ƏSAS HİSSƏ

Dünya ədəbiyyatında distopiya janrı əsasən XIX və XX əsrlərdə dünya ədəbiyyatında geniş yayılmış və müxtəlif cəmiyyətlərin qaranlıq tərəflərini əks etdirən bir ədəbi forma kimi formalaşmışdır. Bu janrın kökləri ellinizim mədəniyyətinə**,** Platonun "Respublika" kimi utopik əsərlərinə qədər uzanır, lakin distopiya xüsusi olaraq 19-cu əsrdə sənaye inqilabı və kapitalizmin yaratdığı sosial problemlərə cavab olaraq meydana çıxmışdır.

XX əsrdə isə distopiya janrı iki dünya müharibəsi, totalitar rejimlərin yüksəlişi və texnologiyanın sürətli inkişafı ilə daha da genişlənmişdir. Bu dövrdə yazılan əsərlər, cəmiyyətin qaranlıq gələcəyinə dair qorxuları və xəbərdarlıqları əks etdirir.

Bu janrda yazılan və kifayət qədər məşhur olan bir neçə dünya ədəbiyyatı örnəyini qeyd edək. George Orwellin 1949-cu ildə yazdığı *"1984"* romanı totalitar rejimin fərdi azadlıqları necə məhv etdiyini və cəmiyyəti necə nəzarət altında saxladığını təsvir edir. "Böyük qardaş" konsepti ilə məşhur olan bu roman, distopiya janrının ən təsirli nümunələrindən biridir. Aldous Huxleyin 1932-ci ildə yazdığı "Brave New World" texnologiyanın və genetik mühəndisliyin insan cəmiyyətini necə dəyişdirdiyini və fərdi azadlıqların necə məhv edildiyini təsvir edir. Huxley, cəmiyyətin uydurma xoşbəxtliklə necə idarə olunduğunu göstərir. Ray Bradbury 1953-cü ildə yazdığı "Fahrenheit 451" romanı kitabların qadağan edildiyi və fərqli fikirlərin boğulduğu bir cəmiyyəti təsvir edir. Əsər, senzura və məlumatın nəzarəti kimi mövzulara toxunur. Margaret Atwood – "The Handmaid's Tale" *və* Yevgeni Zamyatin "Biz" romanları da məhvə sürüklənən və fərdi azadlıqların məhv edildiyi və cəmiyyətin tam nəzarət altında olduğu bir dünyanı təsvir edir.

Azərbaycan ədəbiyyatında distopik elementlərin meydana çıxması əsasən XX əsrin əvvəllərində, xüsusilə Sovet İttifaqı dövründə başlamışdır. Sovet rejiminin totalitar quruluşu, senzura və fərqli fikirlərin boğulması kimi amillər yazıçıların əsərlərində distopik motivlərin əks olunmasına səbəb olmuşdur. Bu dövrdə yazılan əsərlərdə cəmiyyətin repressiv quruluşu, fərdi azadlıqların məhdudlaşdırılması və insan hüquqlarının pozulması kimi mövzular əsas yer tutur. Məsələn, İlyas Əfəndiyev, Anar və digər yazıçıların əsərlərində Sovet rejiminin təsiri ilə yaranan distopik elementlərə rast gəlmək mümkündür. Ancaq qəti şəkildə distopik əsər adlandıra biləcəyimiz heç bir əsər yoxdur. Çünki, həmin dövrdə həmin dövrdə belə açıq şəkildə distopik əsərlər yazmaq mümkün deyildi. Sovet İttifaqı dövründə senzura güclü şəkildə tətbiq olunduğu üçün yazıçıların düşüncələrini sərbəst şəkildə ifadə etməsi çox zaman çətinləşirdi. Bu səbəbdən, ədəbiyyatda distopik elementlər daha çox simvolik və incə şəkildə təqdim olunurdu. Məsələn, əsərlərdə ümumi cəmiyyətin təzyiqi altında olan fərdlərin və ya kollektivin izolyasiyası, təfəkkür azadlığının məhdudlaşdırılması, şüuraltı təzyiqlər və cəmiyyətdəki mədəni və sosial çatışmalar tez-tez əks olunurdu.

Beləliklə, Sovet dövrünün ədəbiyyatında distopik elementlər çox vaxt dolaylı yollarla, rəmzi şəkildə təqdim olunmuş, lakin birbaşa distopiya janrında yazılmış əsərlər az olmuşdur. Bu cür əsərlərin olmaması isə rejimin nəzarətində olan ədəbiyyatın sərhədləri ilə bağlıdır.

Anarın "Ağ qoç, qara qoç" əsəri Azərbaycan ədəbiyyatında utopik və antiutopik janrların sintezindən yaranan orijinal bir nümunədir. Əsər, "Məlikməmməd" nağılının motivləri əsasında qurularaq, cəmiyyətin gələcəyi ilə bağlı fərqli ssenariləri təqdim edir. Burada ağ qoç işıqlı, ideal bir dünyaya, qara qoç

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 383-390*

isə qaranlıq, distopik bir dünyaya aparan simvollar kimi çıxış edir. (5). Ancaq əsərdə distopik məqamar da mövcuddur. Bel ki, Əsərin qara qoçun rəhbərliyi altında təqdim olunan hissəsində, Azərbaycan üç fərqli zona üzrə bölündüyü və cəmiyyətin parçalandığı göstərilmişdir. Bu bölgülər və onların təsvirləri, distopik cəmiyyətin əsas xüsusiyyətlərini əks etdirir:

Bu üç zona arasındakı sərhədlər sərt şəkildə qorunur və insanlar arasında əlaqə kəsilmişdir. Hətta bir ailənin üzvləri belə fərqli zonalarda yaşayaraq, bir-birlərini görmək istəmirlər. Bu, cəmiyyətin parçalanmasını və insan münasibətlərinin pozulmasını vurğulayır.

Əsərdə cəmiyyətin gələcəyi ilə bağlı müxtəlif ssenarilər təqdim edilir, və bu ssenarilər içərisində distopik elementlər xüsusi yer tutur. Yazıçı fərqli ideologiyaların hakim olduğu bölgələri təsvir edərək, cəmiyyətin deqradasiya prosesini göstərir və bununla yanaşı bir sıra distopik xüsusiyyətlər də öz əksini tapır.

Despotik kommunizm zonasındakı insanlar dövlətdən asılı vəziyyətə düşmüşlər. Burada sərt ideoloji nəzarət hökm sürür və fərdi azadlıqlar məhdudlaşdırılmışdır. Totalitar sistemin ən bariz xüsusiyyəti insanı bir fərd kimi yox etməsi, onu kütlənin kiçik bir hissəsinə çevirməsidir. Əsərdə bu zona kommunizmin ifrat formasına əsaslanır və burada insanlara yalnız sistemin tələb etdiyi şəkildə düşünmək icazə verilir. Onların şəxsi həyatına, fikirlərinə və hətta emosiyalarına belə nəzarət olunur.

Burada yaşayan insanlar təkcə fiziki yox, mənəvi mənada da nəzarət altına alınmışdır. Beyrəyin bu zonada olması, bir fərd olaraq onun özünə aid seçim edə bilmədiyini, müəyyən ideologiyanın çərçivəsində hərəkət etməyə məcbur edildiyini göstərir. Beyrək fərd kimi yoxa çıxır, çünki totalitar sistemin daxilində azad düşüncəyə yer yoxdur. Bu, tarixdə totalitar rejimlərin həyata keçirdiyi beyin yuyulma proseslərini və fərdin dövlət tərəfindən necə mənimsəndiyini xatırladır.

**Mənəvi dəyərlərin deqradasiyası da burada qarşımıza distopik əsəsrlərə xas bir forma kimi çıxır. Vəhşi kapitalizm zonasına baxdıqda, burada fərqli bir mənzərə ilə qarşılaşırıq. Kapitalizmin nəzarətsiz qaldığı cəmiyyətlərdə mənəvi dəyərlərin pul qarşısında məğlub olması ehtimalı böyükdür. Əsərdə bu, insan münasibətlərinin kommersiyalaşdırılması ilə göstərilir. İnsanlar burada yalnız qazanc əldə etməyi düşünür, mənəvi dəyərlər isə tədricən sıradan çıxır.**

Burla bu zonada öz bədəni ilə pul qazanmaq məcburiyyətində qalan bir obraz kimi təqdim edilir. Burla cəmiyyətin içərisində öz dəyərini yalnız maddi baxımdan ifadə edə bilir. Bu, kapitalist sistemlərin ən ifrat halında insanın yalnız bir istehlakçı və mal-mülk sahibi kimi dəyərləndirilməsini göstərir. Kapitalist sistemin nəzarətsiz inkişaf etdiyi cəmiyyətlərdə insanın mənəvi bütövlüyü parçalanır, çünki onun əxlaqi prinsipləri, insani duyğuları kapitala uyğunlaşdırılır. Bu zonada pul hər şeyin ölçü vahidinə çevrilib, hətta insan münasibətlərinin də.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.383-390*

Kapitalizm özü-özlüyündə iqtisadi inkişafın mühərriki ola bilər, lakin mənəviyyatdan uzaq düşdükdə, yalnız mənfəət naminə hərəkət edən cəmiyyətlər yaranır. Əsərdə bu prosesin nəticəsi olaraq, insanların yalnız pulun və maddi imkanların arxasınca qaçdığı bir sistem formalaşır. Burada insan münasibətləri dəqiqliklə tənzimlənmiş bir ticarət mexanizminə çevrilib, sevgi, hörmət, ailə dəyərləri isə kölgədə qalır.

**Dini fanatizm əsas distopik məqam kimi qarşımıza çıxan digər bir mövzudur. İslamçı zonada insanların həyatını idarə edən əsas amil dinin sərt, fanatik şəkildə tətbiq olunmasıdır. Burada din, insanların həyatını tənzimləyən bir mənəvi dəyər olmaqdan çıxaraq, məhdudiyyətlərin və qadağaların əsas vasitəsinə çevrilir.**

Aypərinin çarşab geyinməsi və qadınların sosial həyatdan uzaqlaşdırılması bu zonada qadınların hüquqsuz vəziyyətə salındığını göstərir. Əsərdə Aypəri yalnız bu sistemin tələblərinə uyğunlaşmaqla yaşaya bilər. Onun qadın kimi düşünməsi, danışması, hətta görünüşü belə bu rejim tərəfindən müəyyən edilir. Fanatizmin hökm sürdüyü cəmiyyətlərdə fərdi azadlıqlar kəskin şəkildə məhdudlaşdırılır və insanlara müəyyən bir ideologiyanın çərçivəsində yaşamaq məcburiyyəti qoyulur.

Burada əsas problem dini dəyərlərin sui-istifadə edilməsidir. Əsər, dini dəyərlərin ekstremizmə çevrildiyi və insanların məhz bu məhdudiyyətlər vasitəsilə idarə olunduğu bir modeli təsvir edir. Fanatizmin olduğu cəmiyyətlərdə fərdi seçimlərə yer verilmir və insanın kimliyini özü deyil, sistem müəyyən edir. Əsərdə bu zona, dini dəyərlərin yanlış istiqamətdə tətbiq edildiyi cəmiyyətlərə tənqidi yanaşma kimi görünə bilər.

Əsərdə ən qorxunc distopik elementlərdən biri cəmiyyətin parçalanmasıdır. İnsanlar üç fərqli zonaya bölünmüş və aralarındakı əlaqə kəsilmişdir. Bu, yalnız fiziki bir ayrılıq deyil, eyni zamanda mənəvi və emosional uçurumun göstəricisidir.

Bu parçalanma ən çox ailə münasibətlərində hiss edilir. Ata, ana və uşaqlar fərqli zonalarda yaşamağa məcbur ediliblər. Burada diqqətçəkən məqam odur ki, onlar bir-birləri ilə əlaqə saxlamaq istəmirlər. Çünki hər biri olduğu sistemin qaydalarına uyğunlaşmış və digər sistemlərdə yaşayan ailə üzvlərini düşmən olaraq görməyə başlamışdır. Bu, ideoloji parçalanmanın insan münasibətləri üzərində necə dağıdıcı təsir göstərdiyini göstərir.

Cəmiyyətin parçalanması, müxtəlif ideologiyaların sərhədlər yaratdığı və fərqli düşüncə tərzlərinin bir-birinə qarşı qoyulduğu vəziyyətlərdə baş verir. Əsərdə ailə fərdlərinin bir-birlərindən uzaqlaşması, onların mənsub olduqları ideologiyalar arasında keçilməz divarların mövcud olduğunu göstərir. Hər bir zona öz dəyərlərini digərindən üstün tutur və fərqli düşünən insanları qəbul etmir. Bu, real həyatda ideoloji qütbləşmənin gətirdiyi fəsadları xatırladır.

Bu parçalanma yalnız ideoloji ayrılıqla məhdudlaşmır, eyni zamanda insani münasibətlərin süqut etməsinə gətirib çıxarır. Ailənin bir araya gələ bilməməsi,

onların bir-birlərini tanımamaq həddinə çatması, distopik cəmiyyətlərin əsas faciələrindən biridir. Anarın təqdim etdiyi bu dünya, cəmiyyətin dərin bir böhran içində olduğunu və əgər insanlar ifrat ideologiyaların ardınca getsələr, bütövlüklərini itirəcəklərini göstərir.

Anarın "Ağ qoç, qara qoç" əsəri, cəmiyyətin müxtəlif ideologiyalar səbəbindən parçalanmasını, insanın fərdiliyini itirməsini və mənəvi dəyərlərin necə aşındığını göstərən düşündürücü bir əsərdir. Yazıçı fərqli ideologiyaların gətirdiyi fəsadları açıq şəkildə göstərərək, oxucunu balansın vacibliyi barədə düşünməyə vadar edir. Əsərdə distopik elementlər vasitəsilə bir sual qoyulur: insanlar ifrat ideologiyaların arxasınca getsələr, gələcək necə olacaq? Cavab isə əsərin özündə gizlidir – parçalanmış, soyuq və insansız bir dünya.

NƏTİCƏ

Azərbaycan ədəbiyyatında distopiya müstəqil bir janr kimi formalaşmamışdır, lakin bəzi yazıçıların əsərlərində bu janra aid elementlərə rast gəlinir.

Anarın "Ağ qoç, qara qoç" əsəri Azərbaycan ədəbiyyatında distopik elementləri özündə birləşdirən əsas nümunələrdən biridir, burada totalitarizm və kapitalizm kimi müxtəlif idarəetmə modelləri tənqid olunur.

Texnologiya və nəzarət mövzusu Azərbaycan ədəbiyyatında yetərincə işlənilməmişdir, halbuki dünya ədəbiyyatında distopiyanın əsas istiqamətlərindən birini təşkil edir. Bu da Azərbaycanda bu sahənin az inkişafı ilə bağlı ola bilər.

**Ədəbiyyat siyahısı**

1. Hacıyeva M, T. Distopiya bədii mətnlərində insan və cəmiyyət münasibətləri Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, Filologiya məsələləri № 4, 2024 Səh. 430-437.
2. Huxley, A. Brave New World. London: Chatto & Windus. 1932
3. Orwell, G. *1984*. London: Secker & Warburg. 1949
4. Rzayev, A. Beşmərtəbəli evin altıncı mərtəbəsi. Bakı: Yazıçı. 1981
5. https://litres.az/book/anar/ag-qoc-qara-qoc-68371172/?utm_source=chatgpt.com

## ABSTRACT
## DYSTOPİAN ELEMENTS İN AZERBAİJANİ LİTERATURE: TOTALİTARİANİSM, SURVEİLLANCE, AND FEARFUL SCENARİOS OF THE FUTURE

Azerbaijan has overcome many hardships in its recent history. Invasions, wars, mismanagement, and the resulting civil conflicts, territorial losses, genocides, and other historical events have left deep marks on the collective consciousness of the people. The traces of these traumas can be seen in literary works. Such socio-political processes have always shaped the direction of literature. Just as in world

literature, a tense atmosphere has led to the emergence of dystopian themes in Azerbaijani literature. However, a systematic study of this genre is still needed.

This research employs personal analysis, literary critique, and comparative methods to examine dystopian elements in Azerbaijani literature. First, the general foundations of the dystopian genre will be introduced and compared with examples from world literature. Then, works containing traces of this genre in Azerbaijani literature (including the Soviet and independence periods) will be analyzed.

The study reveals that dystopian elements in Azerbaijani literature have often been conveyed covertly through symbols and metaphors rather than being explicitly expressed. In particular, the works of writers such as Jalil Mammadguluzadeh and Mir Jalal Pashayev contain elements of social dystopia.

During the independence period, this genre has developed further and become more prominent in the works of Anar, Perviz Jabrayil, Akshin Yenisey, and other authors. These writers express the political repression of the Soviet era, state surveillance, and the decline of cultural values through dystopian forms.

This research demonstrates that while the dystopian genre in Azerbaijani literature has not been fully explored as an independent literary direction, its traces can still be found. In the future, it will be necessary to conduct more in-depth research and systematically analyze the genre.

**Keywords**: *dystopia, Azerbaijani literature, Anar,* Ağ qoç, qara qoç

## АННОТАЦИЯ
## ДИСТОПИЧЕСКИЕ ЭЛЕМЕНТЫ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ: ТОТАЛИТАРИЗМ, КОНТРОЛЬ И ПУГАЮЩИЕ СЦЕНАРИИ БУДУЩЕГО

Азербайджан преодолел множество трудностей в своей недавней истории. Вторжения, войны, ошибки в управлении и связанные с этим гражданские конфликты, потеря территорий, геноциды и другие исторические события оставили глубокий след в сознании народа. Следы этих травм можно увидеть в литературных произведениях. Такие социально-политические процессы всегда определяли направление литературы. Как и в мировой литературе, напряженная атмосфера привела к появлению дистопических тем в азербайджанской литературе. Однако данный жанр еще не был систематически изучен.

В этом исследовании используются методы личного анализа, литературной критики и сравнительного анализа для изучения дистопических элементов в азербайджанской литературе. Сначала будут рассмотрены общие основы жанра дистопии и проведено сравнение с примерами из мировой литературы. Затем будут проанализированы произведения, содержащие

элементы этого жанра в азербайджанской литературе (включая советский и постсоветский периоды).

Исследование показывает, что дистопические элементы в азербайджанской литературе часто передавались скрыто, через символы и метафоры, а не открытым текстом. В частности, в произведениях таких писателей, как Джалил Мамедкулизаде и Мир Джалал Пашаев, присутствуют элементы социальной дистопии.

В период независимости этот жанр развился и стал более заметным в произведениях Анар, Первиза Джебраила, Акшина Йенисея и других авторов. Эти писатели выражают политические репрессии советского времени, государственный контроль и упадок культурных ценностей в дистопической форме.

Это исследование демонстрирует, что хотя жанр дистопии в азербайджанской литературе еще не был полностью исследован как самостоятельное направление, его следы можно обнаружить. В будущем необходимо проводить более глубокие исследования и систематический анализ этого жанра.

**Ключевые слова**: *дистопия, азербайджанская литература, Анар,* Аг гоч, гара гоч

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Zamin Babazadə**